**UOT 654.19(4/9); 002.2.(4/9)**

# "AZADLIQ", "AMERİKANIN SƏSİ" VƏ BBC RADİOLARININ YERLİ TEZLİKLƏRDƏ YAYIMININ DAYANDIRILMASI SƏBƏBLƏRİ

**A.M.NƏSİBOVA**
***Bakı Dövlət Universiteti***
***almazmahmud@gmail.com***

*Azərbaycan müstəqillik əldə edəndən sonra Amerikanın səsi", "Azadlıq" və BBC radioları Azərbaycan hökuməti ilə danışıqlar apararaq maneəsiz , yerli tezlikdə yayımlanmağa başladı. Müxtəlif vaxtlarda yerli özəl şirkətlərlə və ya ayrıca tezlikdə müqavilə əsasında yayımlanan radiolara 2009-cu il yanvarın 1-dən yayım üçün lisenziya verilmədi. Bu isə cəmiyyətdə heç də birmənalı qarşılanmadı. Milli Televiziya və Radio Şurası Azərbaycan qanunvericiliyi əsas götürülərək radioların yerli tezliklərinin ləğvinin hüququ baxımdan doğru qərar olduğunu bildirdi. Amma bir çox beynəlxalq qurumlar bunu söz və ifadə azadlığının məhdudulaşdırılması kimi qiymətləndirdilər.*

**Açar sözlər:** Yayım, FM tezliyi, yerli qanunvericilik, beynəlxalq standartlar, özəl şirkətlərin tələbi, BBC-nin tələbləri, "Azadlıq" radiosunun kəskin verilişləri, "Amerikanın səsi"nin Yayım texnologiyası

Ötən əsrin əvvəllərində dünyanın aparıcı dövlətləri tərəfindən yaradılan və xarici auditoriyaya hesablanan "Azadlıq", "Amerikanın səsi" və BBC radiostansiyalarının xarici yayım xidmətləri sərhəd bilməyən böyük rola malik olublar. Bu gün də kifayət qədər auditoriyası olan "Amerikanın səsi", "Azadlıq" və BBC-nin Azərbaycan dilində olan verilişlərini iki tarixi mərhələyə bölmək olar: birinci mərhələ – Sovet İttifaqının tərkibində müttəfiq bir respublika olan Azərbaycan üçün verilişlər yayımlanan dövrü, ikinci mərhələ isə Azərbaycan müstəqilik qazandıqdan sonra olan dövrü əhatə edir. Azərbaycan müstəqillik əldə edəndən sonra radiolar maneəsiz, yerli dalğalarda yayımlanmağa başladı və daha keyfiyyətli yayım texnologiyasına üstünlük verdi.

İlk vaxtlardan orta dalğada yayımlanan BBC-nin Azərbaycan xidməti öz tezliyi ilə yanaşı, o zamankı Azərbaycan Dövlət Radiosu (indiki Azərbaycan Tele-radio Verilişləri QSC), habelə ANS ÇM radiosu vasitəsilə də retranslyasiya olunurdu. 2002-ci ilin mayında isə 103.3 FM kanalının açılışı oldu və o vaxtdan etibarən Azərbaycan dilində verilişlər FM dalğası keyfiyyəti ilə Bakıda yayımlanmağa başladı.

"Azadlıq" radiosu da 2004-cü ildən başlayaraq orta dalğa ilə yanaşı FM tezliyində yayıma start verdi. Belə ki, bir il əvvəl radio "Space" Müstəqil Teleradio Şirkətinin tezliyindən istifadə edirdi ki, bir müddətdən sonra "Space"lə də müqavilə dayandırıldı. Hətta "Space"-lə əməkdaşlığın ləğv edilməsini bəzi media mütəxəssisləri siyasi səbəb kimi, bir növ hakimiyyətə daha yaxın mövqedə olması kimi qiymətləndirmişdilər.

Bundan sonra "Azadlıq" və "Amerikanln səsi" radioları "ANS" Müstəqil Teleradio Şirkəti ilə müqavilə imzalayaraq onun tezliyindən istifadə etdi. Bir müddət sonra ANS-in yayımı ilə bağlı yaranan problem radiolardan da yan keçmədi. ANS-in yayım lisenziyası Milli Televiziya və Radio Şurasının 24 noyabr 2006-cı il tarixli iclasının qərarına əsasən həmin gün saat 16:00-dan etibarən ləğv edildi. ANS-in tezliyində yayımlanan "Amerikanın səsi" və "Azadlıq" radiolarının da yayımı dərhal dayandırıldı. Radiolar əvvəlki kimi qısa və orta dalğalarda, yəni AM tezliyində yayımını davam etdirdi.

Bir sıra yerli qəzetlər bu problemi radiostansiyalara qarşı qərəzli mövqe kimi qiymətləndirmişdilər. Məsələn, "Bakı Xəbər" qəzetindəki "Hakimiyyət Qərb radiostansiyalarının yayımına nəzarəti ələ keçirmək istəyir" adlı məqaləyə görə, qərb radiostansiyalarına hakimiyyətin çıxışı olmadığı üçün iqtidar rəhbərliyi ən yaxşı çıxış yolunu onların yayımına problemlər yaradılmasında görür (3).

Milli Televiziya və Radio Şurasının rəhbəri Nuşirəvan Məhərrəmli bildirmişdi ki, xarici kanallar və radiolar hansısa yerli özəl şirkətlə deyil, məhz Azərbaycan hökuməti ilə müqavilə imzalanandan sonra bu ölkənin ərazisində fəaliyyət göstərə bilər. Hətta ABŞ-ın Azərbaycandakı Səfirliyinin, o cümlədən "Azadlıq" və "Amerikanın səsi" radiolarının nümayəndələri ilə görüşdə də Milli Teleradio Şurasının sədri bildirmişdi ki, bu radioların hansısa bir özəl şirkətlə müqaviləyə əsasənda fəaliyyət göstərməsi qanunsuzdur və onlara lisenziyanın verilməsi prosesi də beynəlxalq müqavilə əsasında həyata keçirilməlidir. Azərbaycanda da bu müqavilədən istifadə edilməlidir (12).

ABŞ administrasiyası nümayəndələrinin və Azərbaycandakı səfirliyinin hökumətlə apardığı danışıqlar nəticəsində çox qısa bir vaxtda 2006-cı il dekabrın 8-də Milli Televiziya və Radio Şurası hər iki radioyaya ayrıca tezlik verdi. Qurumun rəhbəri ABŞ Dövlət Departamenti, Amerika Yayım İdarəetmə Şurası (BBG), Marketinq İşləri üzrə Departament (İBB) və ABŞ-ın Bakıdakı Səfirliyi radiolara lisenziya verilməsi ilə bağlı müzakirələri daha da intensivləşdirdi və 2006-cı ilin dekabrında Marketinq İşləri üzrə Departament (İBB) və "Amerikanın Səsi" radiosunun nümayəndələri Bakıya səfər edərək Azərbaycan prezidentinin KİV üzrə köməkçisi, Milli Teleradio Şurasının rəhbəri, rabitə naziri ilə görüşdən sonra 2007-ci ilin yanvarından "Azadlıq" və "Amerikanın səsi" radioları ayrıca 101.7 FM tezliyində yayaımlanmağa başladı. Bundan sonra radiolar üçün yeni mərhələ başladı. Həm yerli media, həm də bu xarici radioların bir-biri ilə informasiya bazarında rəqabətinin yeni formaları ortaya çıxdı. Bu da radioların dinləyici auditoriyasına öz müsbət təsirini gös-

tərdi. Artıq ötən illərlə müqaisədə müxtəlif təbəqələrdə dinləyici auditoriyası artmağa başladı.

“Amerikanın səsi” və BBC radiolarından fərqli olaraq “Azadlıq” radiosunun verilişlərində kəskin dəyişikliklər edildi və koorporasiya öz strateji qərarını çıxararaq foksu dəyişdirmək, proqramlar şəbəkəsini yeniləmək, dinləyici auditoriyasını genişləndirmək və gənc auditoriyanı cəlb etmək üçün proqramlar hazırlanmağa başladı.

“Azadlıq” radiosunun Azərbaycan nümayəndəliyinin inzibatçısı Yəhya Mirzəyev “Bzizm əsr” qəzetinə müsahibəsində radionun fəaliyyəti ilə bağlı qeyd etmişdi ki, onlar "Demokratik cəmiyyət - bilgili cəmiyyətdir" prinsipini əsas götürərək Azərbaycanda cəmiyyətin bütün vacib sahələri və tendensyaları haqqında məlumatlı olmasına çalışırlar (4).

Bu dövrdə hər üç radio öz verilişlərində təkcə siyasətə, iqtisadiyyata, biznesə, səhiyyəyə, təhsilə, istehlakçının hüquqlarına, maraqlı insanların həyatı barədə bilgilərə geniş yer vermişdir. Bu prinsiplə işləməklə dinləyici auditoraysını genişləndirməyə nail olduqlarını deyən radio təmsilçiləri subyektiv fikirləri efirdən deyib, hamını da onunla razılaşmağa səsləməyin düzgün olmadığını və bununla bağlı siyasətçilərə üstünlük verdiklərini qeyd edirlər. Amma 2008-ci ilin prezident seçkiləri ərəfəsi “Azadlıq” radiosunda tənqidi verilişlər yenidən daha çox üstünlük təşkil etməyə başladı.

“Seçki qatarı”, “İşdən sonra” “Panorama” verilişlərində seçkilərlə bağlı daha çox yerli və xarici ekspertlərin tənqidi fikirləri təqdim edilir, müxalif partiyaların nümayəndələrinin çıxışları verilirdi. Yerli mətbuatda, xüsusilə də hökumətyönlü qəzetlərdə radionun bu mövqeyi kəskin qarşılandı. “Yeni Azərbaycan” qəzetindəki “Azadlıq” radiosu azaddırmı? sərlövhəli məqalədə radionun Azərbaycana qarşı qərəzli mövqeyi tənqid edilərək loqosundakı mavi rəngin narıncı rənglə əvəz olunması belə izah edilmişdi: “Bu radionun əsas sütunu olan mərkəzi ofisində vurulan loqo ilə Bakıda asılan lövhə arasında fərq kifayət qədərdir. Belə ki, mərkəzin müəyyənləşdirdiyi rəng mavi, Azərbaycan bölməsinin isə rəngi narıncıdır. Narıncı rəngin nə məna verdiyini müəyyənləşdirmək üçün çox da düşünməyə ehtiyac yoxdur. Hamıya bəllidir ki, bir neçə il öncə post-sovet məkanında baş qaldırmış rəngli inqilabların başlıca maliyyə mənbəyi Soros Fondu idi. Soros bu inqilabların zahiri rəngini müəyyənləşdirirdi. O zamanlar Azərbaycanda da belə bir inqilabın gerçəkləşdirilməsi ideyasının olduğu heç kəsə sirr deyildi və bunu da "narıncı inqilab" adlandırırdılar” (5).

Məhz elə bu vaxtdan başalayaraq Azərbaycan qanunvericiliyi əsas gətirilərək radioların yerli tezlikdə yayımlanmasının hüququ baxımdan doğru olmaması barədə artıq mətbuatda ara-sıra mövqelər bildirilirdi. Milli Televiziya və Radio Şurası, eləcə də digər aidiyyatı qurumlar, ümumiyyətlə Azərbaycanda yaylımlanan bütün xarici KİV-lərin yayımına yenidən baxılması ilə bağlı fikirlər səsləndirməyə başladı.

Hətta Azərbaycan Milli Teleradio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmli "Amerikanın səsi", "Azadlıq" və BBC radiolarının Azərbaycan xidmətlərinin ölkədə sərbəst yayımının 2009-cu ildən dayandırılacağı ilə bağlı konkret fikrini bildirdi. Onun sözlərinə görə, növbəti illərdə radioların yerli tezlikdə yayımlanması üçün onlara lisenziya verilməyəcək. O, bunu belə əsaslandırmışdı ki, xarici radiostansiyalar, Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da öz verilişlərini peyk, İnternet və kabel şəbəkəsi vasitəsilə yayımlaya bilərlər **(7).**

MTRŞ onu da bəyan etmişdi ki, yayımın dayandırılması barədə qərar, ola bilsin ki, radiostansiyaların hamısına şamil edilməsin. Amma bir ya iki radiostansiyaya müəyyən müddət ərzində yerli radio tezliklərdə yayımını davam etdirmək imkanı veriləcək (11). Sözügedən məsələ ilə bağlı dərhal "Azadlıq" radiosu "ANS PRESS" agentliyinə öz rəyini açıqlamış və radio rəhbərliyi vəziyyətdən xəbərdar olduğunu, məsələni ciddiyyətlə nəzərdən keçirdiyini bildirmişdi: "Biz hələ də məlumatı qiymətləndiririk və necə cavab verəcəyimizlə bağlı qərar qəbul etmək üzrəyik. Biz inanırıq ki, "Azadlıq" radiosu Azərbaycan xalqına professional və senzuraya uğramamış xəbərlər çatdırılmasında önəmli rol oynayır və biz bu işi bundan sonra da davam etdirməkdə əzmliyik" (6). Artıq bu ərəfədə hər iki tərəf arasında intensiv polemika başlayır və elə "Azadlıq"ın ardınca BBC xidməti bəyanatla çıxış edir: "BBC Azərbaycandakı tərəfdaşları ilə 15 ildən artıqdır ki, yaxşı əlaqələrə malikdir. Beynəlxalq xəbərlərə tələbatın artdığı bir dövrdə biz Azərbaycanda dinləyiciləri etibarlı, qərəzsiz, müstəqil xəbər və informasiya ilə təmin etməkdə qərarlıyıq. BBC hadisələrin inkişafını izləməkdə davam edir" **(9).**

MTRŞ-nın xarici radiostansiyaların dayandırılması ilə bağlı qərarı cəmiyyətdə siyasi motivlərlə də əlaqələndirilirdi. Qurumun rəhbəri Nuşirəvan Məhərrəmli öz növbəsində bunun heç bir siyasi mahiyyət daşımadığnı qeyd etmişdi: "Xarici radio və televiziya kanallarının ölkədə sərbəst yayımının dayandırılması heç bir siyasi mahiyyət daşımır və bu addım söz azadlığına qarşı yönəlməyib. Bu söz azadlığına qarşıdırsa, onda necə olur ki, biz qardaş Türkiyənin TRT kanalına qarşı da eyni tədbiri görmək niyyətindəyik" (9).

2008-ci ilin oktyabrın 31-də Azərbaycan Televiziya və Radio Şurasının sədri Yayım İdarəetmə Şurasının (BBG) rəyinə yenidən mövqe bildirərək hökumətin nəzarətində olan tezliklərdə efirə gedən xarici media yayımlarının konkret olaraq 2009-cu ildə dayandırılacağını növbəti dəfə bəyan etmişdi: "Qərar Avropa və beynəlxalq standartlara uyğunlaşmaq naminə qəbul edilib" (10).

ABŞ-ın Azərbaycandakı sabiq səfiri Enn Dersi "Azadlıq" radiosunun "İşdən sonra" proqramında qeyd etmişdi ki, son 15 il ərzində - keçmiş prezident Heydər Əliyev bu stansiyaya Azərbaycanda fəaliyyət göstərmək imkanı verdikdən sonra radio Azərbaycanın inkişafına çox böyük təkanlar və töhfələr verib: "Azadlıq" radiosu azərbaycanlılar üçün də, bizim üçün də vacibdir" (8).

Məsələnin siyasi addım olduğunu deyən yerli ekspertlərdən fərqli olaraq, xarici ekspertlər, siyasi liderlər və diplomatlar onun yalnız qanuni tərəfləri ilə

bağlı mövqe bildirirdilər. Lakin bu arada yalnız Norveçin Azərbaycandakı o zamankı səfiri Yon Ronberq prosesin siyasi tələb olduğunu demişdi. Səfir Ronberqin bu mövqeyinə Azərbaycanın Xarici İşlər Nazirliyindən etiraz edilərək bildirilmişdi ki, Norveç tərəfi öz bəyanatlarında daha diqqətli olmalıdır, çünki bu kimi hallar ikitərəfli münasibətlərin inkişafına xələl gətirə bilər.

Avropa Şurasının həmin dövrdəki baş katibi olmuş Terri Devis, ABŞ Dövlət Departamenti, ATƏT-in media və söz azadlığı üzrə xüsusi nümayəndəsi Mikloş Haraşti və digər beynəlxalq qurumlar ardı-arası kəsilmədən bəyanatlar verməyə başladılar və radioların yerli tezliklərdə yayımının davam etdirilməsini vacib hesab etdilər. “Fridom Haus”, “Sərhədsiz Reparttorlar” təşkilatı kimi beynəlxalq media qurumları isə bunu söz və ifadə azadlığının məhdudlaşdırılması kimi dəyərləndirdilər.

“Azadlıq” radiosunun Bakı bürosunun rəhbəri Xədicə İsmayılova “New-York Times” qəzetinə müsahibəsində radioların yerli tezlikdə yayımının qadağan edilməsini plüralizmin əleyhinə yönəlmiş addım kimi qiymətləndirmişdi: “Bu radio müxalifətin öz fikirlərini deyə bildiyi, debatların baş verdiyi yeganə yer idi”.

Lakin bütün bunlara cavab olaraq Azərbaycan Milli Teleradio Şurasının sədri Nuşirəvan Məhərrəmli hər üç radionun yayımının yerli tezliklərdə yalnız dövlətlərarası sazişlə nizamlanmasını mümkün sayaraq “Xarici radiostansiyaların yerli tezliklərdə dayandırılması Azərbaycan qanunvericiliyinə tam uyğundur”, - deyə bir daha Azərbaycan hökumətinin bu məsələdə israrlı olduğunu bildirmiş və yerli tezliklərdə xarici radiolarının yayımının dayandırılması hər hansı beynəlxalq normanı pozmadığını demişdir. Milli Televiziya və Radio Şurasında (MTRŞ) qurumun sədri ABŞ-da Yayımın İdarəetmə Şurasının nümayəndələri Duog Boynton, “Azadlıq” radiosunun nümayəndəsi Juliya Ragana, ABŞ-ın Azərbaycandakı səfirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Terri Devidson, eləcə də səfirliyin siyasi məsələlər üzrə müşaviri Coanna Qansonla 2008-ci ilin dekabrın sonlarında sonuncu dəfə görüşür və Azərbaycan hökümətinin mövqeyini açıqlayır. Nəhayət, dekabrın 30-u 2008-ci ildə Teleradio Şurası xarici radioyayımlar haqqında qərar verir. 2009-cu ilin yanvarın 1-dən hər üç radionun yerli tezliklərdə fəaliyyəti dayandırılır.

Amma radioların FM tezliyi ləğv olunandan sonra da Azərbaycan hökuməti ilə Amerika Yayım Şurası arasında danışıqlar davam etdirilmiş və 2009-cu ilin fevralında Azərbaycan dövlətinə həm Amerika Yayım Şurası, həm də BBC koorporasiyası tərəfindən xarici radiostansiyalarla bağlı təkliflər daxil olmuşdur.

2009-cu ilin mart ayının əvvəllərində Bakıda səfərdə olan ATƏT-in Minsk Qrupunun o vaxtkı amerikalı həmsədri, ABŞ dövlət katibinin müavinin köməkçisi Metyu Brayza bildirmişdi ki, xarici radioların yayımının bərpası Azərbaycanla ABŞ arasında münasibətlər üçün çox önəmlidir: “Bakıya səfərim zamanı prezident İlham Əliyevlə xarici radioların Azərbaycanda FM tezliyində yayımının dayandırılması məsələsini müzakirə etmişik. Hazırda

radioların yayımının bərpası üçün danışıqlar tərəflər arasında davam etdirilir. Bütün bu danışıqların son nəticələri prezident İlham Əliyevin verdiyi qərardan sonra bəlli olacaq"(13).

2009-cu il yanvarın 1-dən başlayaraq radiolar özlərinin internet saytlarının fəaliyyətinə, opretivlik və dinamiklik baxımından daha çox üstünlük verməyə başladılar. Məhz bundan sonra radiolar üçün daha bir dövr başladı.

## ƏDƏBİYYAT


1. Avropada ifadə azadlığı. Bakı: Avropa Şurası nəşriyyatı, 294 s.
2. Əhmədli N. Kütləvi informasiya vasitələri xaricə siyasi təbliğat sistemində. Bakı: 2004, BDU, 74 s.
3. "Bakı xəbər" qəzeti. Bakı, 2006, 11 dekabr
4. "Bizim əsr" qəzeti. Bakı, 2006, 9 sentyabr
5. "Yeni Azərbaycan" qəzeti. Bakı, 2008, 8 avqust
6. www anspress.com
7. www.apa.az
8. www.azadliq.org
9. www.bbc.co.uk/azeri
10. www.voanews\azeri
11. www. turaninfocom
12. www.trend.az
13. ww.sia.az


## ПРИЧИНЫ ПРЕКРАЩЕНИЯ ТРАНСЛЯЦИИ РАДИО «СВОБОДА», «ГОЛОС АМЕРИКИ» И ББС


**А.М.НАСИБОВА**


## РЕЗЮМЕ


После приобретения независимости Азербайджаном радио «Свобода», «Голос Америки» и ББС договорились с азербайджанским правительством о беспрепятственной трансляции своих передач на местных радиочастотах. Однако с 1 января 2009-го года зарубежным радиокомпаниям было отказано в лицензии на вещание передач на частотах местных частных радиокомпаний на основе контракта и отдельных частотах, предусмотренных для международных радио. Эта мера была неоднозначна воспринята в обществе. Национальный Комитет по телерадиовещанию заявила о правомерности данного решения основываясь на законодательство Азербайджана.



**Ключевые слова:** трансляция, FM частота, местное законодательство, международные стандарты, требование частных компаний, требования ББС, критические передачи радио «Свобода», трансляционная технология радио «Голос Америки»

# CAUSES OF THE STOPPAGE OF THE RADIO LIBERTY, VOICE OF AMERICA AND BBC BROADCASTING ON LOCAL FREQUENCIES

**A.M.NASIBOVA**

**SUMMARY**

After gaining independence, the Azerbaijani goverment consented to the unhindered broadcasting of radio Liberty, VOA and BBC on local radio frequencies. However, on January 1, 2009 it refused the license for the translation of the programs of the foreign radio companies on the frequencies of the local private radio companies on the basis of appropriate contracts and distinct frequencies provided for the international radio channels. The measure was not accepted unequivocally by the society. The National Committee for TV and Radio Broadcasting called it legitimate basing on the Azerbaijani legislation.

**Key words:** broadcasting, FM frequency, local legislation, international standards, requirement of private companies, the BBC requirements, critical programs of the Radio Liberty, broadcasting technology of the VOA.